

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

2 FEVRAL 2025-ci il BAZAR | № 23 (8071) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ


*Gənclik yaşamaq, yaratmaq əzmi, güc mənbəyidir. Bütün dövrlərdə respublikamızın həyatında müstəsna rol oynamış, xalqımızın azadlıq mübarizəsinin bayraqdarı olmuş Azərbaycan gənci öz həyat yolunu müstəqil dövlətimizin gələcəyi kimi qəbul etmiş və bu yolla sabaha inamla addımlamışdır. Ulu öndər Heydər Əliyev deyirdi ki, vətənpərvər, milli məfkurəyə sadiq hər bir gənc dövlətimizin gələcəyi haqqında düşünməli, xalqımızın milli-mənəvi dəyərlərini mənimsəməli, bütün fəaliyyətini müstəqilliyimizin əbədi olmasına həsr etməlidir. Vətənini, torpağını, millətini, dilini sevməli, dininə, milli adət-ənənələrinə bağlı olmalıdır. Bütün bunları mənəvi güc hesab etməyən insan həyatda özünə yer tapa, ölkənin ictimai-siyasi həyatında, müstəqil Azərbaycanın inkişafında iştirak edə bilməz. Ümummilli Lider Azərbaycan gəncinin savadlı, geniş dünyagörüşlü və ən əsası isə Vətəninə bağlı olmasını arzulayırdı. Elə bu səbəbdən də onun zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti əsas yer tuturdu.*



# Yüksək mənəviyyatlı, dövlətə sədaqətli, vətənpərvər gənclik etibarlı gələcəkdir

Müasir, müstəqil Azərbaycanı gənclər ölkəsinə çevirmək, gənc nəslin mükəmməl təhsil almasını, həyatı dərindən öyrənməsini, dünyada gedən proseslərdə yaxından iştirakını təmin etmək və ən əsası Azərbaycan gəncliyinin inkişafına etibarlı zəmin yaratmaq üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi təsis edildi. Nazirliyin yaradılması ilə bütün sahələrdə inkişafın aparıcı qüvvəsi olan, ölkədə baş verən proseslərin mərkəzində dayanan gənclərin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra Dövlət proqramları hazırlandı. Qısa bir vaxtda qurum dövlət gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirərək hökumət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini uğurla əlaqələndirdi.

Ümummilli Liderin 1996-cı il 26 yanvar tarixli Sərəncamına əsasən, həmin il fevral ayının 2-də respublika gənclərinin I forumu keçirilib. Forumda geniş nitq söyləyən ulu öndər Heydər Əliyev dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi gənc nəslin problemlərinin həllinin, onların cəmiyyətdə layiqli iştirakının təmin olunmasının hər zaman diqqət mərkəzində saxlanacağını bildirib: "Konstitusiyada hər bir vətəndaşın hüquqları, azadlıqları öz əksini tapıbdır, eyni zamanda hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Konstitusiyanın maddələrinin üçdə bir hissəsi respublika vətəndaşlarının, o cümlədən gənclərin hüquq və azadlıqlarına həsr olunub. Əmin ola bilərsiniz: biz çalışacağıq ki, vətəndaşların Konstitusiyadan irəli gələn hüquq və azadlıqları daim təmin olunsun, qorunsun və Konstitusiyanın bütün maddələri ardıcıl surətdə həyata keçirilsin, tətbiq olunsun".

Gənclərin vətəndaşlıq borcundan danışan Ulu Öndər onların üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, bunu ən vacib məqsəd olaraq həyata keçirəcəklərinə əminliyini ifadə edib. Gənclərin qarşısında duran ən ümdə vəzifənin Ana Qanunumuzu öyrənmək, Konstitusiyanın vətəndaşların vəzifələrinə, hüquqlarına aid olan maddələrini bilmək və Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq olduğunu deyib.

Respublika gənclərinin I forumu hüquqi, demokratik, sivilizasiyalı, dünyəvi dövlət olan müstəqil Azərbaycanın ictimai həyatında əlamətdar hadisə oldu. Gənc nəslin nümayəndələri əldə etdikləri nailiyyətləri, qarşılarına qoyduqları məqsədləri, gələcək hədəfləri, eyni zamanda üzləşdikləri problemləri ətraflı təhlil etdilər. Sabahın qurucuları təşkilatlanıb, birləşib cəmiyyətdə öz yerlərini tutmaqla müasir müstəqil Azərbaycanın inkişafı üçün çox böyük işlər görə biləcəklərini bildirdilər. Ümummilli Lider forumda gənclərin sərbəst, azad, müstəqil şəkildə öz fikirlərini ifadə etmələrini, gələcəkləri üçün vacib problemlərin həll olunması barədə təkliflər irəliyə sürmələrini yüksək qiymətləndirdi: "Sevindirici cəhət ondan ibarətdir ki, gənclər respublikamızın həyatının bu çətin dövründə, ağır dövründə həyata, gələcəyə çox nikbinliklə baxırlar, yaşamaq, yaratmaq əzmindədirlər, böyük problemlər haqqında düşünürlər, böyük problemlər irəliyə sürürlər. Onların bir qisminin həllinin indi mümkün olmaması aydındır, ancaq iş burasında deyil, iş orasındadır ki, gənclər düşünürlər, gənclər fikirləşirlər, gələcək haqqında düşünürlər, təkliflər irəli sürürlər. Deməli, həqiqətən müstəqil Azərbaycanın gələcəyini düşünürlər. Burada olan bu mehriban münasibət və ruh yüksəkliyi bizi də sevindirir".

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Prezident Heydər Əliyevin göstərişi ilə forumda bütün nazirliklərin, icra və digər hakimiyyət orqanlarının nümayəndələrinin iştirakı böyük əhəmiyyət kəsb edirdi. Belə ki, problemlərini, qarşılarına çıxan çətinlikləri, həyata keçirmək istədikləri ideyalarını birbaşa gənclərin dilindən eşidən səlahiyyətli şəxslər bu məsələlərin tez bir zamanda həllini tapması üçün tədbirlər gördülər. Ulu öndər Heydər Əliyev gəncləri maraqlandıran məsələlərin həllini yerli hakimiyyət orqanlarının qarşısında konkret vəzifə kimi qoydu.

Forum ölkə gənclərinin hər bir sahədə mühüm vəzifələrin həyata keçirilməsində fəal iştirak etməyə hazır olduqlarını göstərməklə yanaşı, həm də Azərbaycanda gənclər hərəkatının vüsət almasına, onların təşkilatlanmasına böyük təkan verdi.



# Yüksək mənəviyyatlı, dövlətə sədaqətli, vətənpərvər gənclik etibarlı gələcəkdir

1997-ci il fevral ayının 1-də respublika gənclərinin I forumunun ildönümü münasibətilə bir qrup gənci qəbul edən ümummilli lider Heydər Əliyev "2 fevral - Azərbaycan Gənclər Gününün elan edilməsi haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, respublika gənclərinin ilk forumunun keçirildiyi gün - 2 fevral Azərbaycan Gəncləri Günü elan edildi. Bununla da bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda gənclər günü qeyd edilir.

1999-cu ildə Azərbaycan gənclərinin II forumu keçirildi. Üç il müddətində görülən işlərə yekun vuran, gələcəyə daha perspektivli yollar açan II forumda Azərbaycan gəncliyinin həyatını, təhsilini, məşğulluğunu və fəaliyyətini təmin etmək üçün bütün imkanların səfərbərliyə alınmasının vacibliyi qeyd olundu. Eyni zamanda respublika gənclərinin təşkilatlandığı, artıq cəmiyyətdə öz yerini tutaraq müstəqil Azərbaycanın inkişafında lazımi işlər gördüyü vurğulandı. II forumu Azərbaycan gəncliyinin bu gününün, sabahının aydın güzgüsü hesab edən Ulu Öndərin "Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!" - müraciətindən sonra ölkəmizin ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakına şərait yaradıldı. Dünya təhsil sisteminə uyğun təhsil almaları, əmək fəaliyyəti, dövlət, hökumət işlərində işləmələri üçün qarşılarında geniş yollar açıldı. Gənclərin yüksək səviyyədə təhsil almalarının vacibliyini qeyd edən Heydər Əliyev, Nazirlər Kabineti, nazirlik və yerli hakimiyyət orqanlarına gənclərin irəli çəkilməsi, onların dövlət işlərinə cəlb olunması üçün mühüm tapşırıqlar verdi: "Mən bu fikri əvvəllər də irəli sürmüşdüm. Ancaq təəssüflər olsun ki, onun əməli surətdə tam həyata keçirilməsinə nail ola bilməmişik. Ona görə də forumun yekunları ilə əlaqədar sənədlərdə bizim bu çağırışlarımızdan əlavə, onları həyata keçirmək üçün, gənclərin dövlət, hakimiyyət işinə cəlb olunması üçün konkret tədbirlər görməliyik. Hesab edirəm ki, şəhərlərə, rayonlara, bütün nazirliklərə bu barədə lazımi göstərişlər verilməlidir və onların həyata keçirilməsi nəzarət altında olmalıdır... Əmin ola bilərsiniz ki, mən bu fikri axıradək həyata keçirəcəyəm".

Dahi lider ailə dəyərləri əsasında formalaşan, geniş dünyagörüşlü, dərin bilikli, vətənpərvər ruhlu gəncləri dövlətçiliyimizin möhkəmləndirilməsinin, müstəqilliyimizin qorunub saxlanmasının dayağı hesab edirdi. Ulu Öndər etibarlı gələcəyin qurulmasında yüksək mənəviyyatlı, dövlətə sədaqətli, vətənpərvər gənclərin əvəzsiz rolunun olduğunu bildirmişdir.

Gənclər bu günümüzü yaşadan, gələcəyimizi quran böyük qüvvədir. Bu gün sürətlə inkişaf edən, iqtisadi gücü, hərbi potensialı, humanist siyasəti ilə dünyanın diqqət mərkəzində olan müstəqil Azərbaycan vətənpərvər, sağlam düşüncəli, aydın təfəkkürlü, əqidəsindən, məsləyindən dönməyən, milli-mənəvi dəyərlərinə bağlı olan gənclərlə daha xoşbəxt gələcəyə mətin addımlarla irəliləyir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**